

**1 SENTYABR 2024-CÜ İL AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ NÖVBƏDƏNKƏNAR SEÇKİLƏR GÜNÜDÜR! HƏR BİRİMİZİN SƏSİ HƏLLEDİCİDİR!**





*"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır".*

**Heydər Əliyev**

# XIZI


Qəzet 1990-cı ildən çıxır.
№ 8 (198) 322
Avqust 2024-cü il

Təsisçi: Xızı Rayon İcra Hakimiyyəti


# Prezident İlham Əliyev Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən dövlətimizin başçısı **İlham Əliyev** dedi:

-İlk növbədə, idmançılarımızı gözəl qələbələr münasibətilə təbrik edirəm. Siz Yay Olimpiya Oyunlarında ölkəmizi ləyaqətlə təmsil etmisiniz, Azərbaycan Bayrağını ucaltmısınız, bütün xalqımızı sevindirmisiniz. Sizi həm təbrik edirəm, həm də sizə öz təşəkkürümü bildirmək istəyirəm.

Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır. Bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir. Təsadüfi deyil ki, biz bu Oyunlarda dünyanın ən güclü 30 ölkəsinin arasında yer almışıq - 2 qızıl, 2 gümüş və 3 bürünc medal, hesab edirəm ki, çox yaxşı nəticədir. İdmançıları, onların məşqçilərini bu gözəl hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm.

Onu da bildirmək istəyirəm ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb. Nəzərə alsaq ki, İslam Əməkdaşlıq Təşkilatında 57 üzv mövcuddur, hesab edirəm, bu, çox gözəl və tarixi nəticədir. Bütövlükdə komandamızın çıxışına qiymət verərək mən hesab edirəm ki, bizim idmançılarımız ən yüksək qiymətə layiq olmalıdır.

Xüsusilə qızıl medalçılarımızı – Hidayəti və Zelimi ürəkdən təbrik etmək istəyirəm. Onlar Olimpiya Oyunlarının ilk günlərində bu qələbə sevincini xalqımıza bəxş etmişlər. Onların həm peşəkarlığı, həm idmandakı uğurları və eyni zamanda, davranış qaydaları, əlbəttə ki, hər birimizi ürəkdən sevindirdi. Onlar uzun illər ərzində öz çəki dərəcələrində liderliyi qoruyublar və bu liderliyi Olimpiya Oyunlarında bir daha təsdiq etmişlər. Onların məşqçilərini təbrik edirəm, Cüdo Federasiyasının rəhbərliyini təbrik etmək istəyirəm. Federasiyada işlər, təlim-məşq prosesi düzgün qurulanda, ab-hava gözəl olanda nəticə də əlbəttə ki, göz qabağındadır.



Daha çox medal qazana bilərdik, bəli, qazana bilərdik. Amma bu idmandır, idmanda qələbə də olur, məğlubiyyət də olur. Əsas odur bu Oyunlar bir daha göstərdi ki, Azərbaycanda idmanın inkişafı ardıcıl surətdə gedir. Onu da bildirməliyəm ki, bizim idmançılarımız beş idman növündə medallar qazanmışlar: cüdo, boks, taekvondo, yunan-Roma güləşi, sərbəst güləş üzrə. Yəni, bu da onu göstərir ki, Azərbaycanda idmanın bir çox növləri inkişaf edir.

Əlbəttə ki, indi müəyyən istirahətdən sonra yeni hazırlıq prosesinə start veriləcək, həm Avropa, həm dünya çempionatlarına hazırlıq işləri gedəcək. Əlbəttə ki, biz növbəti Olimpiya Oyunlarına da indidən hazırlaşmalıyıq. Bir neçə idman növündə nəsillərin dəyişməsi prosesi gedir. Ona görə təbii ki, biz növbəti Olimpiya Oyunlarına bu prizmadan yanaşmalıyıq və xüsusilə uşaq-yeniyetmə idmanına bundan sonra da diqqət göstərilməlidir. Nəzərə alsaq ki, idmanla məşğul olmaq üçün indi ölkəmizin hər bir yerində gözəl şərait var. İdmana rəhbərlik edən qurumlar arasında koordinasiya işləri düzgün qurulub, federasiyalar, klublar uğurla fəaliyyət göstərir. Nəzərə alsaq ki, hər bir Olimpiya Oyunlarından sonra, xüsusilə ölkəmiz üçün uğurlu Oyunlardan sonra idman bölmələrinə uşaqların, yeniyetmələrin axını müşahidə olunur, mən əminəm, növbəti Olimpiya Oyunlarına hazırlıq prosesi də ardıcıl aparılacaq.

Əlbəttə, tam əminəm ki, həm cüdo, həm digər idman növləri ilə məşğul olmaq istəyən uşaqlarımızın sayı çox olacaq və bunu arzulayıram. Uzun illər ərzində idmanın kütləviliyi ilə bağlı dediyim sözlər və verdiyim tapşırıqlar bir məqsədi güdür ki, fiziki, mənəvi cəhətdən sağlam, Vətənə bağlı, vətənpərvər və peşəkar gənc nəsil yetişsin. İdmançılarımızın uğurlu çıxışları bunu bir daha göstərdi ki, biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik.

Əlbəttə ki, bu nailiyyətlər, eyni zamanda, medallar qazanmış idmançıların məsuliyyətini də artırır. Mən şadam ki, bizim idmançılarımız həm yarışlarda, eyni zamanda, həyatda nümunəvi davranış qaydaları göstərirlər. Yəni, siz gənclər üçün nümunəsiniz. Gənclər sizə baxıb sizin kimi olmaq istəyəcəklər və bu qələbənin vacib olan tərəflərindən biri məhz bundan ibarətdir.

Bir daha sizi ürəkdən təbrik etmək və sizə yeni qələbələr, uğurlar arzulamaq istəyirəm.

***

Olimpiya çempionu, cüdoçu **Hidayət Heydərov** çıxış edərək dedi:

- Cənab Prezident, bu gün bizi buraya dəvət etdiyiniz üçün çox sağ olun. Mən çox xoşbəxtəm ki, dünya çempionu olanda Siz məni təbrik etdiniz, mənə dəstək oldunuz. Olimpiya çempionluğunda ilk olaraq Siz mənə zəng edib təbrik etdiniz. Düzdür, özü burada olmasa da, mən bizim Olimpiya çempionumuz Elnur Məmmədliyə "Çox sağ ol" demək istəyirəm. Biz bir-birimizə söz vermişdik ki, Avropa, dünya və Olimpiya çempionu olacağıq və olduq. İnşallah, bundan sonra da Los-Anceles Olimpiadasına birlikdə hazırlaşıb orada da öz qələbəmi göstərəcəyəm.

Mən fəxr edirəm ki, Fransanın Paris şəhərində Olimpiya çempionu oldum, bizim Bayrağımız qalxdı və Himnimiz səsləndirildi. Mən bununla çox fəxr edirəm, çox sağ olun, minnətdaram Sizə.

**Prezident İlham Əliyev:** Sağ ol.

***

Dövlətimizin başçısı Parisdə keçirilən Yay Olimpiya Oyunlarında idmançılarımızın zəhməti, istedadı, peşəkarlığı sayəsində qazandıqları qələbənin bütün xalqımıza sevinc bəxş etdiyini dedi.

Azərbaycan Prezidenti qeyd etdi ki, xüsusilə Olimpiya Oyunlarında qazanılan qələbə idmanda da, məişətdə də, həyatda da idmançının üzərinə böyük məsuliyyət qoyur. İdmançılarımızın yalnız məharətləri ilə deyil, həm də yarış zamanı layiqli davranışları ilə seçildiklərini vurğulayan dövlətimizin başçısı dedi ki, bu, onların yüksək mənəvi keyfiyyətlərini bütün dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyev uzun illər Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında ölkəmizin adını ucaldan veteran idmançılara minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycan idmançılarına və məşqçilərinə yeni qələbələr və uğurlar arzuladı.

***

Sonra Olimpiya çempionları, cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyev Azərbaycan Prezidentinə xatirə hədiyyələri təqdim etdilər.

Daha sonra dövlətimizin başçısı XXXIII Paris Yay Olimpiya Oyunlarında qazanılan yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə təltif olunan idmançılara və onların məşqçilərinə ordenləri təqdim etdi.

Sonda xatirə şəkli çəkdirildi.

# Rusiya Federasiyasının Prezidenti Vladimir Putin avqustun 18-də Azərbaycan Respublikasına dövlət səfərinə gəlib



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva evlərində Rusiya Prezidenti Vladimir Putinlə şam ediblər





***Rusiya Federasiyasının Prezidenti Vladimir Putin avqustun 18-də Azərbaycana dövlət səfərinə gəlib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva evlərində Rusiya Prezidenti Vladimir Putinlə şam ediblər.









Həmin gün Azərbaycan Respublikasınm Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva evlərində ölkəmizdə dövlət səfərində olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə şam ediblər.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin avqustun 19-da rəsmi qarşılanma mərasimi olub.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə məhdud tərkibdə görüşü keçirilib.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə mübadiləsi mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dövlət başçılarmın Birgə Bəyanatını qəbul ediblər.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin "Bakı Ağ Şəhər"də olublar.

Gəzintidən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə geniş tərkibdə görüşü keçirilib.

Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

İlham Əliyev və Vladimir Putin avqustun 19-da Bakıda Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralında olublar.

"Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin şərəfinə dövlət ziyafəti verilib. Ziyafətdə Azərbaycanın və Rusiyanın musiqi əsərlərindən ibarət konsert proqramı təqdim edilib.

Avqustun 19-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Azərbaycanda dövlət səfərində olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Şəhidlər xiyabanını ziyarət edib.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri avqustun 19-da başa çatıb.

# Prezident İlham Əliyev Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak etmək üçün Qazaxıstana səfər edib






Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti tədbirdə çıxış edib.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli dövlət başçıları.

Əziz dostlar.

İlk növbədə, Mərkəzi Asiya Dövlət Başçılarının görüşündə fəxri qonaq qismində iştirak üçün dəvətə görə Qazaxıstan Prezidentinə təşəkkür etmək istərdim.

Ötən il mən Tacikistan Prezidenti Emoməli Şaripoviç Rəhmonun dəvəti ilə Düşənbədə keçirilən Sammitdə iştirak etmişəm.

Azərbaycanın bu görüşlərə dəvət olunması ölkələrimiz arasında mövcud dostluq, qardaşlıq münasibətlərindən və inkişaf etməkdə olan əməkdaşlıqdan xəbər verir.

Bu, son iki ildə mənim Mərkəzi Asiya ölkələrinə 16-cı səfərimdir. Həmin müddətdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan həmkarlarım Azərbaycanı ümumilikdə 15 dəfə ziyarət ediblər.

Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur. Xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din və ortaq dəyərlər birləşdirir.

Ermənistanın işğalından azad edilmiş Qarabağın bərpasına dəstək qardaşlıq münasibətlərimizin təzahürlərindən biridir.

Ermənistan tərəfindən təxminən 30 illik işğal dövründə bu ərazilərdə 9 şəhər və yüzlərlə yaşayış məntəqəsi məhv edilib. İşğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı bərpa işləri aparılır və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı davam edir.

Ötən il Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan Mirzə Uluqbəy adına orta məktəbin, bu il isə Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olub. Həmçinin bu il Ağdam rayonunda Qırğızıstanın hədiyyəsi olan orta məktəb binasının təməlqoyma mərasimi keçirilib. Bu qardaşlıq dəstəyinə görə Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentlərinə təşəkkürümü bildirirəm.

Dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir. Bu xüsusda, ötən ay Qazaxıstanda keçirilmiş və Azərbaycanın da iştirak etdiyi "Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimini xüsusilə vurğulamaq istərdim. Həmçinin Azərbaycanın hərbi təhsil müəssisələrində Mərkəzi Asiya ölkələrindən olan müdavimlərin təhsil almaları bu sahədə münasibətlərin inkişafının göstəricisidir.

Azərbaycan bərpaolunan enerji sahəsində Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlıdır. Bu ilin may ayında imzalanmış "Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu" yaşıl enerji sahəsində əməkdaşlığımızda ilk addımdır.

Qarşılıqlı fəaliyyətimizin mühüm istiqamətlərindən biri də nəqliyyat-tranzit sahəsində əməkdaşlıqdır. Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək artırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması istiqamətində görülmüş işlər, Xəzər dənizində Azərbaycanın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi Orta Dəhlizin praktiki cəhətdən önəmini daha da artırır.

Qazaxıstan, Qırğızıstan və Özbəkistan ilə fəal şəkildə investisiya layihələri həyata keçirilir. Artıq Azərbaycan-Qazaxıstan, Azərbaycan-Qırğızıstan və Azərbaycan-Özbəkistan birgə investisiya fondları yaradılıb.

Həyata keçirilən "Rəqəmsal İpək Yolu" layihəsi rəqəmsal infrastrukturun inkişafına və rəqəmsal təhlükəsizliyə töhfə verəcəkdir.

Azərbaycan və Mərkəzi Asiya ölkələri beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Bu xüsusda, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı – SPECA-nı qeyd etmək istərdim. Ötən ilin noyabr ayında Bakıda keçirilmiş, SPECA-nın 25 illiyinə həsr olunmuş Zirvə görüşünün nəticələri əməkdaşlığımızın praktiki inkişafı baxımından əhəmiyyət kəsb edir. SPECA-nın Bakıda keçirilən Sammitində iştirak etdiklərinə görə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan prezidentlərinə bir daha təşəkkür edirəm.

Azərbaycan beynəlxalq ictimaiyyətin yekdil dəstəyini qazanaraq bu ilin noyabr ayında COP29 iqlim konfransına ev sahibliyi edəcəkdir.

Azərbaycan COP29-a sədrliyi çərçivəsində regionumuzda iqlim dəyişmələri ilə bağlı problemlərin həlli üçün Mərkəzi Asiya ölkələri ilə birgə təşəbbüsləri dəstəkləməyə hazırdır.

Mən artıq Mərkəzi Asiya ölkələrinin prezidentlərinə rəsmi dəvət məktubları göndərmişəm və noyabrda Bakıda yenidən görüşməyimizə şad olaram.

Diqqətinizə görə təşəkkür edirəm.

# Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistana dövlət səfərinə gəlib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də Özbəkistan Respublikasına dövlət səfərinə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İslam Kərimov adına Daşkənd Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşıladılar.

***

Avqustun 23-də Azərbaycan Respublikasmm Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində Daşkənddəki "Kıksaroy" dövlət iqamətgahında rəsmi qarşılanma mərasimi olub.

Prezident İlharn Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə məhdud tərkibdə görüşü olub. Hər iki dövlət başçısı Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclasında iştirak edib.

Hər iki ölkə Prezidentinin iştirakı ilə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olub. Sonra hər iki dövlət başçısı mətbuata bəyanatlarla çıxış edib.







Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə görüşüb.

Dövlət başçılarının hər iki ölkənin işgüzar dairələrinin nümayəndələri ilə görüşü keçirilib.

Səfər çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva Daşkənddə "Mexrli" məktəbi ilə tanış olublar. Mehriban Əliyeva və qızı Leyla Əliyeva Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva və qızı Saida Mirziyoyeva ilə birgə Özbəkistanın Xalq rəssamı Akmal Nurun əsərlərindən ibarət sərgi ilə tanış olublar.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva, qızları Saida Mirziyoyeva Daşkənddə keçirilən Azərbaycan və Özbəkistan incəsənət ustalarının birgə qala konsertində iştirak ediblər.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanm şərəfinə dövlət ziyafəti verilib.

Avqustun 23-də dövlət başçısı İlham Əliyevin Özbəkistan Respublikasına dövlət səfəri başa çatıb.



**1 SENTYABR 2024-CÜ İL AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ NÖVBƏDƏNKƏNAR SEÇKİLƏR GÜNÜDÜR! HƏR BİRİMİZİN SƏSİ HƏLLEDİCİDİR!**



# Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov Fındığan və Baxşılı kəndlərində sakinlərlə görüşüb

**Rayon rəhbərinin yaşayış məntəqələrində sakinlərlə görüşməsi, onlarla birbaşa dialoqda olması, əlbəttə ki, müsbət haldır və mühüm əhəmiyyət daşıyır. Bu baxımdan vətəndaşların narahatçılığına səbəb olan problemlər müzakirəyə çıxarılır və onların həlli yolları axtarılır.**

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov 2024-cü ilin avqust ayı üçün təsdiq olunmuş qrafikə əsasən, avqustun 2-də Fındığan, avqustun 7-də Baxşılı kəndlərində sakinlərlə səyyar görüş-qəbullar keçirib.

Vətəndaşlarla keçirilən səyyar görüş-qəbullarda Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovla yanaşı Xızı RİHBA-nın məsul şəxsləri, eləcə də rayonda fəaliyyət göstərən müvafiq xidməti qurumların rəsmiləri iştirak ediblər.

Görüş-qəbullarda vətəndaşların müraciətləri diqqətlə dinlənildikdən sonra onları narahat edən problemlərlə əlaqədar geniş müzakirələr aparılıb. Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov problemlərin həlli istiqamətində edilən müraciət, təklif və şikayətlərlə bağlı müvafiq qurumların rəhbərlərinə xüsusi tapşırıq və göstərişlərini verib.

*"XIZI", R.M.*



















# Xızı Rayon İcra Hakimiyyəti başçısının 2024-cü ilin sentyabr ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| | | | | |
|---|---|---|---|---|
| 1 | Türkoba kəndi | Türkoba kənd tibb məntəqəsi | 06.09.2024 | 11:00 |
| 2 | Yeni Yaşma kəndi | Yeni Yaşma kənd tam orta məktəbin binası | 13.09.2024 | 11:00 |
| 3 | Qarabulaq kəndi | Qarabulaq kənd İƏD üzrə nümayəndəliyin binası | 18.09.2024 | 11:00 |
| 4 | Altıağac qəsəbəsi | Altıağac qəsəbə tam orta məktəbin binası | 20.09.2024 | 11:00 |

# Xızıda "Cinayətkarlığa qarşı mübarizə" mövzusunda "dəyirmi masa" keçirilib

**Avqustun 7-də Xızıda "Cinayətkarlığa qarşı mübarizə" mövzusunda "dəyirmi masa" keçirilib. R.İsmayılov adına Xızı şəhər tam orta məktəbində keçirilmiş tədbir Xızı Rayon İcra Hakimiyyətinin və "XXI əsrin qadınları" İctimai Birliyinin təşkilatçılığı, eləcə də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə baş tutub. Tədbirə rayonun fəal qadınları, gənclər, ictimaiyyət nümayəndələri qoşulublar.**






Tədbirdə Xızı Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi Fətulla Əliyevin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin xüsusi mühüm işlər üzrə baş əməliyyat müvəkkili polkovnik-leytenant İbrahim Əhmədovun, "XXI əsrin qadınları" İctimai Birliyinin sədri Mahirə Əmirhüseynovanın geniş çıxışları dinlənilib.

Çıxış edənlər insan alverinə qarşı mübarizənin əsas istiqamətləri və normativ hüquqi bazası, insanların istismar edilməsinin forma və üsulları, insan alverinin profilaktikası, insan alverinə qarşı mübarizənin hüquqi və təşkilati əsasları, habelə insan alveri qurbanlarının hüquqi vəziyyəti, müdafiəsi və onlara yardım göstərilməsi haqqında, insan alverinin doğurduğu təhlükələr və bu cinayətlərdən qorunmaq barədə tədbir iştirakçılarına ətraflı məlumat veriblər.

Daha sonra söhbət-disput şəklində davam edən "dəyirmi masa"da mövzu ətrafında müzakirələr aparılıb, tədbir iştirakçıları üçün maraqlı olan suallar cavablandırılıb.

***"XIZI", R.M.***
***7 avqust 2024-cü il***

# Xızıda "Milli dövlətçiliyin möhkəmləndirilməsi: azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda maarifləndirici tədbir keçirilib

*"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq."*
*Heydər Əliyev, Ümummilli Lider*





**Avqustun 8-də Xızı Rayon İcra Hakimiyyətinin, YAP Xızı rayon təşkilatının və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Abşeron-Xızı Regional bölməsinin birgə təşkilatçılığı ilə "Milli dövlətçiliyin möhkəmləndirilməsi: azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda maarifləndirici tədbir keçirilib. Heydər Əliyev Mərkəzində təşkil olunmuş tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, din xadimləri, ziyalılar və gənclər iştirak ediblər.**

Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra Vətənimizin azadlığı uğrunda canından keçmiş şəhidlərimizin və Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra mövzu ilə bağlı çıxışlar dinlənilib. Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov öz çıxışında ölkəmizdə mənəvi dəyərlərimizin qorunması və inkişafında Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasının rolu barədə ətraflı bəhs edib. A.Hüseynov Ulu Öndərin azərbaycançılıq ideologiyasının milli həmrəyliyi, bütövlüyü təmin edən, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən məfkurə, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitə olduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Abşeron-Xızı Regional bölməsinin müdiri Yalçın Abdullayev Azərbaycanda dövlətçilik ənənələrinin qorunub saxlanılması və inkişafı prosesindən, azərbaycançılıq ideyasının yaranma tarixindən, milli-mənəvi dəyərlərin dövlətçiliyin inkişafındakı rolundan və əhəmiyyətindən danışıb. O bildirib ki, xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid əqidə ətrafında birləşmək üçün uğurlu bünövrədir.

YAP Xızı rayon təşkilatının sədr müavini Ümman Rüstəmli öz çıxışında Heydər Əliyev dühasının azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olduğunu qeyd edib.

Tədbirdə "Heydər Əliyev və din siyasəti" mövzusunda videoçarx nümayiş etdirilib.

Sonda xatirə şəkli çəkdirilib.

***"XIZI", R.M.***
***8 avqust 20204-cü il***

# Narkomaniya bəşəriyyətin ən qorxulu bəlasına çevrilib

**"Narkomaniya bəşəriyyətin ən təhlükəli bəlasına çevrilib. Eyni zamanda, dünyanın ən qorxulu xəstəliklərinin mənbəyi də elə narkomaniyadır. Bu bəlaya düçar olanlar əksər hallarda onu dəf etməkdə aciz qalırlar."**






Bu fikirlər avqustun 20-də Xızı Rayon İcra Hakimiyyəti və "Sağlam Yaşa" Gənclərin Maarifləndirilməsi İctimai Birliyinin təşkilatçılığı, eləcə də Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin dəstəyi ilə şəhid Rafiq İsmayılov adına Xızı şəhər tam orta məktəbində keçirilmiş "Narkomaniya bəşəriyyətin bəlasıdır" adlı tədbirdə səslənib.

İctimaiyyət nümayəndələrinin, ziyalıların və gənclərin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Xızı Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov bildirib ki, bugünkü gənclik gələcəyimizdir. Dövlətimizin, xalqımızın gələcəyi sağlam və etibarlı gənclikdən çox asılıdır. Buna görə də gənc nəslin sağlam ruhda tərbiyəsi dövlətin və cəmiyyətin əsas vəzifəsi hesab olunur.

Cəmiyyətdə "ağ ölüm" kimi tanınan narkomaniyanın irqindən, yaşından, dinindən asılı olmayaraq bütün xalqları düşündürən ən ağrılı problemlərdən biri olduğunu diqqətə çatdıran A.Hüseynov daha sonra qeyd edib ki, bəşəriyyətin təhlükə mənbəyinə çevrilən narkomaniya dünyanın sərhəd tanımayan qorxunc bir xəstəliyi kimi hamını düşündürür.

Tədbirdə çıxış edən"Sağlam Yaşa" Gənclərin Maarifləndirilməsi İctimai Birliyinin icraçı direktoru və layihənin rəhbəri Tələt Qəribov narkomaniyanın yayılma səbəblərindən və onun törətdiyi fəsadlardan, "Sağlam həyata doğru" İB-nin sədri, kimya üzrə fəlsəfə doktoru Sadiq Həsənov narkomaniyanın insan sağlamlığına vurduğu zərərlərdən, Xızı Rayon Mərkəzi Xəstəxanasının həkim-terapevti Murad Qəhrəmanov narkomaniyanın insanların həyatına gətirdiyi təhlükəli və qurtulması çətin proses olan xəstəliklərdən danışıblar.

Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin Xızı sektorunun əməkdaşı Abdulla Abbasov öz çıxışında narkomaniyaya qarşı mübarizə istiqamətində rayonda müntəzəm olaraq gənclərlə maarifləndirici söhbətlərin aparıldığını vurğulayıb.

Çıxışlarda natiqlər ümumbəşəri problem olan narkomaniyanın həllinə xidmət edən ən mühüm addımlardan biri kimi yeniyetmə və gənclər arasında maarifləndirmə işlərinin genişləndirilməsinin prioritet məsələ olduğunu, dünyanı ağuşuna alan bu ölüm kabusuna qarşı birgə mübarizə aparmağın vacibliyini diqqətə çatdırıblar.

Daha sonra mövzu ətrafında müzakirələr və fikir mübadilələri aparılıb.

***"XIZI", R.M.***
***20 avqust 2024-cü il***

# Ana dilimizi qoruyaq

*"Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilirik."*

**Heydər ƏLİYEV ,**
*Ümummilli Lider*

XX əsrin yetmişinci illərinin ortalarından başlayaraq keçmiş sovetlər birliyinin tərkibində olan müttəfiq respublikaların ictimai-siyasi həyatında dil məsələsinin yenidən gündəmə gətirilməsi həmin vaxtlar SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesinin daha da gücləndirilməsinə səbəb oldu. Ana dilinin inkişafında süni maneələr yaradılırdı. Belə bir taleyüklü şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq, bu məsələni müzakirəyə çıxarmaq üçün böyük cəsarət sahibi olmaq lazım idi. Onu da qeyd etmək lazımdır ki, ötən yüzilliyin 30-ci illərində dil məsələsini qabardanlar Sibirə sürgün olunurdu. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini dilə gətirməkdə çarəsiz qalırdılar.

Ulu Öndər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə heç bir şeydən çəkinmədən cəsarətli mövqe nümayiş etdirərək dövlət dili uğrunda ardıcıl mübarizə aparırdı. Bütün təzyiqlərə, süni məhdudiyyətlərə baxmayaraq, Ümummilli Lider Heydər Əliyev ana dili məsələsində öz prinsipial mövqeyini həmişə qətiyyətlə qorumağa nail olmuşdur.

Dövlət dili uğrunda ardıcıl mübarizə aparan Ümummilli Lider ziyalıları, xalqı ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb edərək bütün qüvvələri səfərbər etmişdir. Böyük tarixi şəxsiyyət SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan dilinə dövlət dili statusunun verilməsində əvəzsiz və tarixi rolu olmuşdur.1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir." Bu, Azərbaycan dilinin gələcək inkişafı istiqamətində atılan mühüm və müdrik addım idi.

Ümummilli Liderin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışından sonra 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülmüşdür.Təkliflərin çox böyük əksəriyyətində ana dilimizin Azərbaycan dili adlandırılması dəstəklənirdi. Geniş müzakirələrdən sonra 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır. Bu qanunverici təşəbbüs Azərbaycan dilinin tərəqqisində önəmli rol oynamışdır.




Müstəqillik illərində dövlət dilinin tətbiqi istiqamətində mühüm işlər görülüb. Ulu Öndər Heydər Əliyev tərəfindən müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi, formalaşması və möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət daşıyan "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" imzalanmış 18 iyun 2001-ci il tarixli Fərman dövlət dili ilə bağlı hərtərəfli və geniş məlumatları özündə ehtiva edir. Bu Fərman əsasında Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradılmışdır.

Azərbaycan dilinin qloballaşma dövrünün mənfi təsirlərindən qorunması və inkişaf etdirilməsi istiqamətində Ulu Öndər Heydər Əliyevin səyləri xalqımıza əvəzedilməz töhfələr bəxş edib. Bu töhfələrdən başlıcası Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi olub. Ulu Öndərin 9 avqust 2001-ci il tarixli "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərmanına əsasən hər il avqustun 1-i ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir.

30 sentyabr 2002-ci il tarixində "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu da Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsinin müstəqil dövlətçiliyimizin başlıca əlamətlərindən biri olduğunu göstərir. Qanuna əsasən Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Həmin Qanun Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır.

Azərbaycan dilinin qorunması naminə böyük işlər görən Ümummilli Lider Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, 2004-2008-ci illərdə latın qrafikası ilə çap olunacaq əsərlərin siyahısı hazırlanmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin 14 yanvar 2004-cü il tarixli "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 30 dekabr 2007-ci il tarixli "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamları ilə ana dilinin həyatımızın bütün sahələrində geniş tətbiqi gerçəkləşib.

Dövlətimizin başçısı müasir dövrün tələblərini və reallıqlarını nəzərə alaraq 9 aprel 2013-cü il tarixli Sərəncamı ilə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nı təsdiq etmişdir. Bu, milli və mənəvi varlığımızın güzgüsü olan ana dilimizin saflığının və zənginliyinin qorunması baxımından mühüm tarixi hadisədir.

*"Azərbaycan dilinin qorunması hər kəsin borcudur. Zənginliyi nöqteyi-nəzərindən Azərbaycan dilinin dünya dilləri arasında xüsusi yeri vardır. Son vaxtlar Azərbaycan dilinə daxil edilən bəzi kəlmələr dilin dəyişilməsinə səbəb olur. Dilin orijinallığının qorunması məsələsi media ilə bağlı qurumların, eləcə də telekanalların da öhdəsinə yeni vəzifələr müəyyən edir. Ümummillli Lider də öz çıxışlarında Azərbaycan dilinin saflığının qorunması üçün çağırışlar edir, dilimizin türk dilləri ailəsində xüsusi müstəqil mövqeyini vurğulayırdı. Ümummmili Liderin təşəbbüsü ilə hər il Azərbaycanda avqustun 1-i Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd olunur."*

**İlham ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

Prezident İlham Əliyevin "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 17 iyul 2018-ci il tarixli Sərəncamı Azərbaycan dilinin inkişafı və tətbiqi dairəsinin daha da genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin 2018-ci il noyabrın 1-də imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı ölkəmizdə dövlət dilinin daim diqqət mərkəzində saxlanıldığını bir daha təsdiqləyir. Sözügedən Fərmandan irəli gələn vəzifələrin icrası çərçivəsində Nazirlər Kabinetinin müvafiq qərarı ilə Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi yaradılıb.

1 Avqust - Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün qeyd edilməsi, dövlət dilinin diqqət və qayğı əhatəsində saxlanması ana dilimizin inkişafında, ona qarşı sevginin artmasında mühüm rola malikdir.

Ulu Öndər Heydər Əliyevin "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir" fikirləri ilə yanaşsaq, Azərbaycan dilini qorumaq, saflaşdırmaq və onu inkişaf etdirmək hər birimizin borcudur.

*"XIZI", R.M.*

# "Kənd Turizminin İnkişafına Dəstək" layihəsi çərçivəsində maarifləndirici tədbir keçirilmişdir







**Azərbaycanda kənd turizminin inkişafı çox vacibdir. Çünki kənd turizmi şəhər mühitinin kənd mühiti ilə əvəz olunması ilə yanaşı kənd yerlərində kiçik sahibkarlığın inkişafının, kənd təsərrüfatı məhsullarının istehlakçılara birbaşa çatdırılmasının təmin edilməsində, bölgələrin mövcud potensialından səmərəli istifadə olunmasında mühüm əhəmiyyətə malik sahədir.**

Kənd turizmi həmin regionun adət-ənənəsinin, mətbəx və digər mədəni məişət sahələrinin təbliğində ən önəmli vasitədir.

Kənd turizminin inkişafı nəticəsində kənd əhalisinin statusu gücləndirilir. Kənd mühitində turizm aspektinin ən vacib tərəfi mədəni əlaqələrin perspektivliyindən, yerli əhalinin maliyyə və iqtisadi səviyyəsindən asılıdır. Bu baxımdan yerli əhalinin tarixi, həyat tərzi və illər boyu yaratdıqları ailə ənənələri turistlər üçün böyük maraq mənbəyinə çevrilir.

Kənd turizminin inkişaf potensialı olan bölgələrdən biri də Xızı rayonudur. Bu məqsədlə avqustun 20-də Xızı Rayon İcra Hakimiyyətinin və "Mədəni İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Altıağac qəsəbəsində "Kənd Turizminin İnkişafına Dəstək" layihəsi çərçivəsində maarifləndirici tədbir keçirilib.

Şəhid Asim Abdullayev adına Altıağac qəsəbə tam orta məktəbində təşkil olunmuş tədbirdə Xızı RİHBA-nın əməkdaşları, işçi qrupunun üzvləri və sakinlər iştirak ediblər.

Giriş sözü ilə çıxış edən "Mədəni İnkişaf Mərkəzi" İctimai Birliyinin sədr müavini Sənan Əlibəyov ölkəmizdə iqtisadiyyatın digər sahələrində olduğu kimi turizm sektorunun da müxtəlif istiqamətlər, xüsusilə ekoturizm, kənd turizmi üzrə inkişaf etdiyini diqqətə çatdırıb. S.Əlibəyov qeyd edib ki, kənd turizimi ilə bağlı maarifləndirmə tədbirlərinin təşkil edilməsində əsas məqsəd bu qabaqcıl təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqini təşviq etməkdir.

Layihənin eksperti Taleh Əliyev öz çıxışında "Kənd Turizminin İnkişafına Dəstək" layihəsi barəsində tədbir iştirakçılarına geniş məlumat verib. Natiq bildirib ki, layihə çərçivəsində kənd turizminin inkişaf potensialı olan regionlarda tədbirlərin təşkil edilməsi ilə turizmin bu sahəsinin ölkəmizdə təşəkkül tapmasına Azərbaycan vətəndaş cəmiyyəti öz töhfəsini vermiş olur.

Çıxışlarda Altıağacda kənd turizminin inkişafı üçün birgə tədbirlərin həyata keçirilməsi istiqamətində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

Altıağac qəsəbəsində turizmin inkişafı üçün mümkün potensial imkanlar barədə ətraflı məlumat verən layihənin eksperti Taleh Əliyev daha sonra sakinlərin suallarını cavablandırıb.

*"XIZI", R.M.*
*20 avqust 2024-cü il*

# Xızıda Beynəlxalq Gənclər Günü qeyd olunub







**12 Avqust - Beynəlxalq Gənclər Günü ilə əlaqədar Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsi, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsi, eləcə də Azərbaycan Milli Konservatoriyasının nəzdindəki Sumqayıt Musiqi Kollecinin birgə təşkilatçılığı ilə Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində "Gənclik sədası" adlı tədbir keçirilib.**

Tədbirdə rayonun ictimaiyyət nümayəndələri, mədəniyyət işçiləri və gənclər iştirak ediblər.

Əvvəlcə, çıxışlar dinlənilib. Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayonu üzrə nümayəndəliyinin mədəniyyət müəssisələri ilə iş sektorunun baş məsləhətçisi Mönsün Bağırov və Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin rəisi Telman Kərimov tədbirdə çıxış ediblər. Çıxışlarda ölkəmizdə əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər və idman siyasətinin hal-hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi, gənclərin və idmançıların hərtərəfli inkişafı üçün respublikamızda lazımi şəraitin yaradıldığı vurğulanıb.

Çıxışlardan sonra rəngarəng konsert proqramı nümayiş olunub.

Tədbir daha sonra düşərgə formatında davam etdirilib.

***"XIZI", R.M.***
***12 avqust 2024-cü il***

## Mədəniyyət xəbərləri

# "Günəşimdir mənim dilim" adlı tədbir keçirilib

Mədəniyyət işçilərinin, Xızı şəhər Uşaq Bağçasının kollektivinin və körpə fidanların iştirakı ilə 1 Avqust - Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününə həsr olunmuş "Günəşimdir mənim dilim" adlı tədbir keçirilmişdir. Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinə tabeli Xızı rayon Mərkəzi Kitabxanası və Cəfər Cabbarlı adına Xızı rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Parkında keçirilmiş tədbirdə çıxış edənlər 1 Avqust - Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün yaranma tarixindən, əlifbamızın və dilimizin keçdiyi inkişaf prosesindən, ana dilimizin qorunub saxlanılmasından danışıblar. Natiqlər öz çıxışlarında Ümummilli Lider Heydər Əliyevin "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli Fərmanına əsasən, hər il avqustun 1-nin ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd olunduğunu, Azərbaycan dilinin mənfi təsirlərdən qorunması və inkişaf etdirilməsi istiqamətində Ulu Öndərin səylərinin xalqımıza əvəzedilməz töhfələr bəxş etdiyini diqqətə çatdırıblar.





Daha sonra balacaların ifasında şeirlər söylənilib, mahnılar səslənib.

Tədbirdə Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə çap olunmuş kitabların və uşaq ədəbiyyatlarının sərgisi təşkil olunub. Sərgi böyük maraqla qarşılanıb.

***"XIZI", R.M.***
***01 avqust 2024-cü il***

# Zərərli vərdişlərdən uzaq duraq!

**Xızı rayon Mərkəzi Kitabxanasının və Cəfər Cabbarlı adına Xızı rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Narkomaniyaya qarşı mübarizə sağlam həyatın təminatıdır" mövzusunda tədbir keçirilib.**





Mədəniyyət və təhsil işçilərinin iştirakı ilə keçən tədbirdə çıxış edənlər zərərli vərdişlərdən uzaq durmağın vacibliyindən, narkotik maddələrin insan həyatına vurduğu zərərlərdən, narkomaniyaya qarşı mübarizədə mədəniyyət və təhsil müəssisələrinin rolundan, bu kimi maarifləndirici tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıblar.

Sonda "Sağlam gələcək və sağlam cəmiyyət naminə narkomaniyaya yox deyək!", "Boş vaxtlarımızı kitabla keçirək!" və "Zərərli vərdişlərdən uzaq duraq!" başlıqlı kitab sərgiləri nümayiş olunub.

***"XIZI", R.M.***
***01 avqust 2024-cü il***

# "Sizə məktub var" filminin nümayişi olub



2 Avqust - Azərbaycan Kinosu Günü ilə əlaqədar Abşeron-Xızı Regional İdarəsinin Xızı rayonu üzrə tabeli müəssisələrin təşkilatçılığı ilə Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində "Sizə məktub var" filminin nümayişi olub. Qarabağ müharibəsi fonunda yaşanan məhəbbət hekayəsindən bəhs edən film böyük maraqla izlənilib.

***"XIZI", R.M.***
***02 avqust 2024-cü il***





# 1 SENTYABR 2024-CÜ İL AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ NÖVBƏDƏNKƏNAR SEÇKİLƏR GÜNÜDÜR! HƏR BİRİMİZİN SƏSİ HƏLLEDİCİDİR!



# İlk dəfə səs verən seçicilərlə görüş keçirilib





Bildiyimiz kimi, 1 sentyabr 2024-cü il tarixində Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Bununla əlaqədar, Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Xızı rayonunun Altıağac və Giləzi qəsəbələrində ilk dəfə səs verəcək gənc seçicilərlə görüşlər keçirilib.

Görüşlərdə 2024-cü il sentyabrın 1-nə təyin olunmuş növbədənkənar Parlament seçkilərində ilk dəfə səs verəcək gənclərə seçkidə iştirak, səsvermə proseduru, seçicinin hüquq və vəzifələri barədə geniş məlumatlar verilib.

***"XIZI", R.M.***

## Poeziya guşəsi



*Ağasəfa*

### *Götür məni qucağına*

Sənsiz durar, vurmaz ürək,  
Ulu dünyam - ulu Bərmək,  
Başın uca, qəlbin kövrək,  
Obam Xızı, elim Xızı.

Məzarların ulduz sanı,  
Zaman silib çoxusunu,  
Yatmışların yuxusunu  
Necə yozum, bilim, Xızı.

Dərələrə duman çökür,  
Cəfərimin ruhu çəkir,  
Səhər evdən çıxıram ki,  
Cəfərimin, Müşfiqimin  
Ayağına gəlim, Xızı.

Gəlmir Cabir - şirin yuxum,  
Boş görünür solum, sağım,  
Bu yollara baxım.., baxım..,  
Doyunca kövrəlim, Xızı.

Əlvandır hər yamac-yaxa,  
Namərdə dərd, mərdə arxa  
Hər dağına qalxa-qalxa  
Dağa dönür könlüm, Xızı.

Sığındım bir bucağına,  
İsinirəm ocağına,  
Götür məni qucağına,  
Qucağında ölüm, Xızı...

***Qarabulaq, 2005***

### *Köhnə məzarlıqda*

Dağ ətəyində köhnə məzarlıq,  
Ən köhnə yoxluq, ən köhnə varlıq.  
Bu yer altında  
Neçə nəsil var, neçə arxa var.  
Möcüzə ola:  
Durub qalxalar  
Bu biçinçilər, bu xırmançılar,  
Ömür üyüdən dəyirmançılar.  
Bu xış tutanlar,  
Kotan sürənlər,  
Ocaq qoruyan ərlər, ərənlər,  
Yuxu bilməyən, dinclik bilməyən,  
Kələk bilməyən, biclik bilməyən,  
Namərd düşməni  
Hər ayağının tozu bilməyən,  
Yazı bilməyən, pozu bilməyən  
Qoçaq babalar,  
Haram tikədən  
Qaçaq babalar.  
Çəhrə əyirən, xalı toxuyan,  
Bayatı deyən, layla oxuyan  
İpək nənələr,  
Kövrək nənələr...  
Möcüzə ola:  
Bu baş daşları qalxa, dəbərə,  
Yüyürəm kəndə, qaçam xəbərə.  
Qorxuram ancaq  
"Heç dirilərmi ölü?" desinlər.  
Qorxuram mənə inanmasınlar,  
Dəli desinlər...

***Qarabulaq, 1997***

### *Eşqi ucadadır*

Eşqi ucadadır şair təbindən,  
Ayrılmaq istəmir gülün ləbindən.  
Yüz loğmanın iynəsindən, həbindən  
Bir bal arısının sancması xoşdur.

Gün doğanda gülün ləçək tökməsi,  
Gün batanda küsüb dodaq bükməsi,  
Mehin çəmənliyə sığal çəkməsi,  
Çiçəyin çiçəyi qucması xoşdur.

Düşmə, Ağasəfa, düşmə həvəsdən,  
Sən də arı kimi çıx çölə tezdən.  
Kövrəlmiş ürəyin bu dar qəfəsdən  
Çıxıb çırpınması, uçması xoşdur.

***Qarabulaq, 2003***

### *Şəhərə gedə bilmirəm*

Şəhərə gedə bilmirəm,  
Ayaqlarım aparmır məni,  
Dirənir, durur  
Asfalt yolu görən kimi.  
Geri dönürəm...  
Yüyürürəm kəndə  
Uşaq anasının üstünə  
yüyürən kimi...

***Qarabulaq, 2002***

## İdman xəbərləri

# Cüdo üzrə ustad dərsləru keçirilib

***"İdman hamı üçün" layihəsi çərçivəsində Giləzi qəsəbəsindəki Uşaq Gənclər İdman Şahmat Məktəbinin idman zalında cüdo üzrə ustad dərsləri keçirilib. Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə avqustun 14-də keçirilmiş ustad dərsləri cüdo üzrə idman ustası Ələm Əliyev tərəfindən aparılıb.***





Cüdo üzrə ustad dərslərinin keçirilməsində əsas məqsəd bu idman növünün kənd və qəsəbələrdə təbliği və inkişafı, sağlam həyat tərzinə çağırış, idmançıların yarışlara hazırlıq səviyyəsinin yüksəldilməsi və asudə vaxtın səmərəli təşkilidir.

Əlavə olaraq qeyd etmək lazımdır ki, XXXIII Paris Yay Olimpiya Oyunlarında Azərbaycan cüdocularının uğurlu nəticələri, parlaq qələbələri ölkəmizdə uşaqlar, yeniyetmələr, gənclər arasında cüdo idman növünə marağı daha da artırıb.

***"XIZI", R.M.***  
***14 avqust 2024-cü il***


Baş redaktor:  
**Rafael Məmmədov**  
Tel: (050) 965-88-89;  
(050) 547-65-39;  
(070) 831-95-96  
*Whatsapp:* (050) 965-88-89;  
(070) 831-95-96  
*Elektron ünvan: xizi.r.m@mail.ru*



*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.*  
*VÖEN: 7800023401*  
*H/h:*  
*3308001944240023O124*

Qəzet "Bəxtiyar - 4 İKF" mətbəəsində çap edilib.

Qəzetdə gedən yazılara görə müəlliflər özləri məsuliyyət daşıyırlar.

*Tiraj: 600*  
*Sifariş: 1201*

*Ünvan: Xızı şəhəri, Vüsaqi küçəsi - 28*